

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 37 (23.679)

*24 fevral 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini videoformatda qəbul edib.

Prezident İlham Əliyev Mərkəzin həmsədrinin Azərbaycana gəlməsindən şad olduğunu bildirib. Qeyd olunub ki, artıq Azərbaycan beynəlxalq hüququ bərpa edib, faktiki olaraq regionda və dünyada yeni reallıqlar yaradıb. Bölgədə uzunmüddətli sülhün və sabitliyin bərqərar olması imkanından istifadə etmək üçün indi çox şey bu reallıqların region ölkələri, böyük dövlətlər tərəfindən düzgün qiymətləndirilməsindən asılı olacaq. İndi xarici diplomatlar, beynəlxalq medianın nümayəndələri işğaldan azad olunmuş əraziləri ziyarət edəndə işğal nəticəsində bizim tarixi abidələrimizin, mədəni abidələrimizin nə vəziyyətə salındığını həqiqətən görürlər. Dövlətimizin başçısı ümidvar olduğunu bildirib ki, pandemiyadan sonra mərkəzin növbəti tədbirində, həmçinin mərkəzin üzvlərinin də işğaldan azad edilmiş bir sıra əraziləri ziyarət etmək və ola bilsin, orada müəyyən tədbiri təşkil etmək fürsəti olacaq. Lakin bu, əlbəttə, bizim gələcək əməkdaşlığımızın və müzakirələrimizin bir hissəsidir.

İsmail Serageldin qeyd edib ki, Prezident İlham Əliyevin dinindən asılı olmayaraq, bütün tarixi abidələrin qorunmasına dair möhtəşəm Bəyanatı çox mühüm məsələdir. Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin gələcək planları və Bakı Qlobal Forumunun keçirilməsi haqqında fikir mübadiləsi aparılıb.



## Naxçıvan şəhərində yeni tələbə yataqxanası istifadəyə verilib





Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında təhsilin xüsusi yeri vardır. Bütün təhsil pillələri üzrə müasir infrastrukturun yaradılması, maddi-texniki bazanın möhkəmləndirilməsi tədrisin səviyyəsini yüksəltmişdir. Eyni zamanda müasir universitet şəhərcikləri salınarkən tələbələrin təhsili ilə yanaşı, onların yaşayış şəraitinin yaxşılaşdırılması da zərurətə çevrilmiş, yeni yataqxanalar tikilmişdir.



Fevralın 23-də Naxçıvan şəhərində yeni tələbə yataqxanası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tələbə yataqxanasında yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, tələbə yataqxanası zirzəmi ilə birlikdə 4 mərtəbə və 2 girişdən ibarətdir. Zirzəmidə qızlar və oğlanlar üçün ayrılıqda 2 hissədən ibarət xidmət sahəsi yaradılmışdır. Burada istirahət və məişət, camaşırxana, anbar və digər texniki otaqlar vardır.

Binanın qız tələbələri üçün nəzərdə tutulmuş hissəsində hər biri 2 yerlik 22 otaq, 3 mətbəx və növbətçi otağı, oğlan tələbələri üçün nəzərdə tutulmuş hissəsində isə hər biri 2 yerlik 19 otaq, 3 mətbəx və növbətçi otağı yerləşir. Ümumilikdə, 82 yerlik yataqxanada 41 otaq vardır. İstirahət otaqlarının hər birinə televizor, oxunması zəruri olan kitablar və şahmat qoyulmuşdur. Bina zəruri mebel avadanlıqları, istilik, elektrik və su sistemləri ilə təmin olunmuş, həyətdə abadlıq işləri aparılmış, işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

Ali Məclisin Sədri demişdir ki, ölkəmizdə təhsilə göstərilən qayğının nəticəsidir ki, yeni universitetlər yaranır, tələbə sayı artır. Muxtar respublikada Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutu, Tibb Kolleci, Musiqi Kolleci, Dövlət Texniki Kollec və Orta İxtisas Polis Məktəbi olmaqla, 3 ali və 4 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Ali təhsil müəssisələrində bakalavr üzrə 8 min 213, magistratura üzrə 446, doktorantura üzrə 163, rezidentura üzrə isə 52 olmaqla, ümumilikdə, 8 min 874 tələbə, orta ixtisas təhsili müəssisələrində Orta İxtisas Polis Məktəbi istisna olmaqla, 1720 tələbə təhsil alır. Ümumilikdə, Naxçıvan şəhərində tələbə kontingenti 10 min 600-ə yaxındır ki, onlardan 1450-si ölkənin digər regionlarından gələn, 1050-yə yaxını isə xarici ölkə vətəndaşıdır. Ona görə də yataqxanaya böyük ehtiyac var.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Dövlət Universitetinin yataqxanasının yer sayı 450, "Naxçıvan" Universitetinin isə 300-ə yaxındır. Bununla belə tələbatın 25-30 faizi ödənilmir. Müasir tələblər səviyyəsində qurulan yeni yataqxanada 80-dən artıq tələbənin yerləşməsinə şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi iş adamları ilə bu sahədə fəaliyyətin qurulmasını təmin etməlidir. Muxtar respublikada tələbə yataqxanalarının yaradılması artıq biznesin bir qoluna çevrilib. Bu, davam etdirilməlidir. Yataqxana Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Naxçıvan Şəhər Ticarət və Xidmət Departamenti tərəfindən idarə olunmalı, yeni dərs ilini gözləmədən istifadəyə verilməlidir. Yararsız vəziyyətdə olan bina yenidən qurularaq şəhərin memarlıq arxitekturasına uyğun müasir və hərtərəfli şəraitlə təmin edilib. Yeni yataqxana həm də yeni iş yerlərinin yaradılmasına səbəb olub. Şəhər kənarında, insanların az məskunlaşdığı yerlərdə yataqxanaların tikilməsi davam etdirilməlidir. Bu iş davam etdirildikcə muxtar respublikaya xarici tələbə axını da artacaq. Çünki xaricdən gələn tələbələr, ilk növbədə, yataqxana ilə təmin olunmaları ilə maraqlanırlar.



Ali Məclisin Sədri yataqxananın qurulmasında əməyi olanlara təşəkkürünü bildirərək demişdir ki, İqtisadiyyat Nazirliyi Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birlikdə yeni 300-500 yerlik yataqxanalar qurmalı, tələbat ödənməlidir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov şəhər ictimaiyyəti adından yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri həyətdə yaradılan istirahət guşəsinə baxmış, ərazidəki ictimai yaşayış binalarının vəziyyəti ilə maraqlanmış və mart ayından etibarən təmir işlərinin davam etdirilməsi barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

Təhsil millətin gələcəyidir

# Təhsildə yeni era: STEAM – nəzəriyyədən tətbiqə

***STEAM tədris metodu şagirdlərin problemlərə fənlərarası və vahid təhsil metodu ilə bilik və bacarıqlara yiyələnməsini təmin etmək məqsədi daşıyır. Bu metod məktəbəqədər təhsildən ali təhsilə qədər olan bütün təhsil müddətini əhatə edən fənlərarası bir yanaşmadır. Maraq, müvəffəqiyyət və motivasiya, zehni prosesin inkişafı, təşəbbüskarlıq və məhsul inkişaf etdirmə bacarıqları STEAM ilə artırıla bilər. Nəticədə, vahid bir şəkildə müxtəlif sahələr üzrə karyera quran tələbə sayının artmasına şərait yaranır.***

Əslində, elmi bacarıqların əsasını elə cəhd, ixtira və istehsal təşkil edir. Sahibkarlıq insanların təşəbbüs göstərməsi və xəyallarını reallaşdırmaq üçün hərəkətə keçməsi kimi anlayışları özündə ehtiva edir. Bu fəaliyyət ilə məşğul olmaq istəyən hər bir kəs risk almaq və cəhd göstərməklə istehsal bacarıqlarını artıra bilər.

Təhsil sistemimizdə STEAM tədris metodunun tətbiqi ölkəmizdə bu sahədə həyata keçirilən islahatların bir hissəsidir. Bu təhsilin məqsədi şagirdlərin potensial və maraqlarını cəmiyyətə xidmət edəcək şəkildə yönəltmək, onları öyrənməyə təşviq etməkdir. Digər bir məqsəd isə fənlər arasındakı fərqi aradan qaldırmaq və bu təhsil yanaşması ilə araşdırma, istehsal və ixtiraçı nəsil yetişdirməkdir. Bundan əlavə, STEAM təhsili məktəblərdə aktiv, sualvermə bacarığı olan şagirdləri müəyyənləşdirməklə onları elm, texnologiya, mühəndislik, riyaziyyat üzrə istiqamətləndirmək və təşviq etmək məqsədi daşıyır. Daha anlaşılacaq şəkildə desək, uşaqlar bu metod vasitəsilə real həyat problemləri ilə qarşılaşanda "nə edim?", "necə edim?" deməyəcək, onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər. Xüsusilə vurğulamaq lazımdır ki, uşaqların məktəbəqədər dövrdə bir sıra hobbiləri olur və onlarda nələrisə qurmaq, yaratmaq həvəsi yaranır. Lakin bir sıra ailələr çalışırlar ki, övladları oxusun, ali təhsilli olsun. Bu cür yanaşma mütəxəssislər tərəfindən də qeyd olunduğu kimi, yanlışdır. Həyatda düzgün mövqe tutmaq üçün gərək sevilən peşə seçilsin. Ona görə də valideynlər övladlarının peşə, sənət seçimlərinə həssaslıqla yanaşmalıdırlar. Bu mənada, STEAM tədris metodu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, uşaqlar bu tədris metodu vasitəsilə elmin digər sahələri ilə yanaşı, beyinlərinin məhsulunu ortaya qoya, gələcəyin mütəxəssisləri kimi yetişə biləcək və dövlətin inkişafına öz töhfələrini verəcəklər. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***"İndi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanı elmi-texniki tərəqqi səviyyəsində inkişaf etdirmək üçün, şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq".***








### *STEM, yoxsa STEAM?!*

Gəlin əvvəlcə STEM sözünün nə demək olduğuna, niyə S,T,E,M hərflərinin birləşməsindən əmələ gəldiyinə nəzər yetirək. Bir daha qeyd edək ki, STEM şagird və tələbələri həvəsləndirən, xəyallarını reallaşdırmağa kömək edən, eləcə də onların əldə etdikləri, öyrəndikləri məlumatları, bilik və bacarıqları yeni və fərqli bir şəkildə gücləndirmələrini təmin edən təhsil formasıdır. STEM sözündəki hərflərin açıqlamasına diqqət yetirək. Science – Elm, Technology – Texnologiya, Engineering – Mühəndislik, Mathematics – Riyaziyyat. Göründüyü kimi, qeyd olunan elmlərin baş hərfləri STEM-i əmələ gətirib. Sual oluna bilər ki, bəs burada A hərfi hanı? Axı STEAM kimi qeyd olunur bu tədris metodu. Səbəbi isə odur ki, STEM təlimlərinə ART, yəni ingiliscədən tərcümədə incəsənət mənasını verən və bu sahə ilə bağlı aktual mövzuların əlavə edilməsi nəticəsində bu təhsil metodu STEAM adlandırılmağa başlandı. STEAM sözündə "E" hərfi ilə qeyd olunan "mühəndislik" yalnız mühəndisliklə kifayətlənmir. Həm də "dizayn və istehsal" mənasını verir. "Elm" sözünü bildirən "S" hərfi də təkcə təbiət elmləri deyil, humanitar və sosial sahələri də əhatə edir.

### *STEAM tədris metodu muxtar respublika məktəblərində...*

Bu tədris metodundan ABŞ, İsrail, Sinqapur, Türkiyə və digər ölkələr kimi, Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında istifadə olunur. 2020-2021-ci tədris ilindən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təlim metodunun tətbiqinə başlanılıb. STEAM təlimlərində şagirdlərə robotexnika, 3D modelləşdirmə və çap, proqramlaşdırma, nano və neyro texnologiyalar, mühəndislik və dizaynerlik bacarıqları öyrədilir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən verilən məlumata görə, bu günədək Şərur rayon Qarabürc və Şahriyar, Ordubad rayon Nüsnüs kənd tam orta məktəblərində, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə və Culfa Rayon Texniki Yaradıcılıq Mərkəzində STEAM kabinələri yaradılaraq istifadəyə verilmişdir. STEAM kabinələri elektron lövhə, kompüter, 3D printer, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təmin olunmuşdur. Hazırda Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonu, Naxçıvan şəhər 5, 11, 12 və 14 nömrəli, eləcə də Ordubad şəhər 1 nömrəli tam orta məktəblərdə STEAM kabinələrinin, Heydər Əliyev adına tam orta məktəbdə isə STEAM Tədris Mərkəzinin yaradılması istiqamətində işlər davam edir. Bunlarla yanaşı, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutunda da STEAM kabinələri yaradılır ki, bu da gələcəkdə ali təhsil müəssisələrinin pedaqoji profilli ixtisaslarını bitirən müəllim kadrların STEAM təlim metodu üzrə biliklərinin formalaşmasına öz töhfəsini verəcəkdir. Gələcəkdə STEAM kabinələrinin muxtar respublikanın bütün məktəblərində yaradılması nəzərdə tutulur.

STEAM təlim metodunun muxtar respublikada tətbiqi təkcə kabinələrin yaradılması ilə yekunlaşmayıb. Bu günədək Naxçıvan şəhərində və Şərur rayonunda 60 müəllimə Təhsil Nazirliyi tərəfindən təlimlər keçirilmişdir. 22 fevral 2021-ci il tarixdən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil edilən onlayn STEAM təlimlərində muxtar respublika ümumtəhsil məktəblərinin 150 müəllimi iştirak edir. Təlimlərin təşkil olunmasında məqsəd müəllimlərdə STEAM dərslərini tədris etmək bacarığını formalaşdırmaqdır. Təlimlər zamanı STEAM metodologiyaları, Robotexnika, 3D CAD modelləşdirmə və çap, proqramlaşdırma, mikrobit və arduino texnologiyaları, mühəndislik modulları müəllimlərə öyrədilir ki, bu da muxtar respublikada STEAM dərslərinin yüksək səviyyədə tədrisinə geniş imkanlar açacaqdır. Təlimi uğurla başa vuran müəllimlər STEAM dərslərini aparmağa icazə hüququ verən sertifikatla təmin ediləcəklər.

STEAM təlim metodu ilə bağlı xarici ədəbiyyatlar Azərbaycan dilinə tərcümə olunmuş, VI və VII sinif dərslikləri, müvafiq tədris proqramları və müəllimlər üçün metodik vəsaitlər hazırlanaraq istifadəyə verilmiş və bu sahədə işlər davam etdirilir.

STEAM təlim metodu pilot layihə olaraq tətbiqi nəzərdə tutulan ümumtəhsil məktəbləri üzrə VI və VII sinif şagirdləri üçün tədris olunur. STEAM kabinələrində yaradılan şəraitlə tanışlıq zamanı Ali Məclisin Sədri muxtar respublikada yeni texnologiyaların tətbiqinin genişləndiyini bildirmiş, bu sahədə yerli mütəxəssislərin, xüsusilə də proqram təminatçılarının yetişməsinin vacibliyini qeyd etmişdir. Qısası savadlı, bilikli, vətənpərvər nəslin yetişdirilməsi üçün muxtar respublikada hər cür şərait yaradılmışdır. Ona görə ki, vətənpərvər, bilikli gənclik ölkənin gələcək inkişafı deməkdir. Ali Məclis Sədrinin də dediyi kimi: ***"Hər bir ölkə gələcəyini uğurlu görmək istəyir. Azərbaycan müstəqil dövlətdir, onun qurucusu ümummilli liderimiz Heydər Əliyevdir. Bu gün onun yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə təhsilə dövlət qayğısı göstərilir. Gənclərin vətənpərvər yetişdirilməsi Azərbaycanın müstəqilliyinin davamlı, gələcəyinin etibarlı olmasına xidmət edir. İnkişafa gedən yol təhsildən keçir. Bütün sahələr üçün yaxşı mütəxəssis, vətənpərvər gənclər məktəblərdə yetişdirilir. Yaradılan şərait imkan verəcəkdir ki, burada yetişdirilən təhsilli gənclər ölkəmizin gələcək inkişafında iştirak etsinlər".***

*Xalqın, dövlətin sabahı innovasiyalar, möhkəm bünövrə üzərində qurulur. Təhsilə, elmə göstərilən qayğının qarşılığında isə təməli yeni nailiyyətlərlə möhkəmləndirmək hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.*

**Rəmzi İBRAHİMOV**

## İsti qış geyimləri hərbi hissəyə təhvil verilib

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində haqqıödənilən ictimai işlərin təşkil olunması, sağlamlıq imkanları məhdud şəxslərin səmərəli məşğulluğuna, onların sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaratmışdır. Ötən il ərzində 30-u sağlamlıq imkanları məhdud şəxs olmaqla, ümumilikdə, 224 nəfər sosialyönümlü ictimai işlərə cəlb olunmuşdur. Fiziki imkanları məhdud olan qadınlar tərəfindən toxunmuş 4100 cüt corab, 2900 yun boyunluq və 920 yun şərf artıq hərbi hissələrə təqdim edilmişdir. Onlar tərəfindən toxunmuş 700 ədəd yun jilet də əsgərlərimizə təhvil veriləcəkdir.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Rəhim Cəfərov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda yerləşən ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Dövlət qayğısından və xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi də növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür. Tədbirdə hərbi qulluqçular göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonra isti geyimlər hərbi hissəyə təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *"Gulfood-2021"* sərgisində Naxçıvan məhsulları maraqla qarşılanır




Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan, o cümlədən Naxçıvan məhsullarının 21-25 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində hər il ənənəvi təşkil olunan "Gulfood-2021" beynəlxalq qida sərgisində nümayişi həyata keçirilir.









Sərgidə muxtar respublikada fəaliyyət göstərən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin 86 çeşiddə vafli, biskvit, lokum, limonad və çay məhsullarının, muxtar respublikanın bütün dünyada tanınmış, brend məhsullardan olan Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin 8 çeşiddə, "Sirab"və "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin 11 çeşiddə "Badamlı" mineral suyunun "Made in Azerbaijan" stendində nümayişi Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən təmin olunmuşdur.

Qeyd edək ki, ölkəmizin qida sənayesi sahəsində fəaliyyət göstərən15 şirkətinin müxtəlif növ və çeşiddə sərgilənən məhsulları arasında Naxçıvan məhsulları ziyarətçilər və mütəxəssislər tərəfindən böyük maraqla qarşılanır.

Yerli istehsal məhsullarının ixrac potensialının artırılması, xarici bazarların araşdırılması, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi məqsədilə "Gulfood-2021" sərgisi çərçivəsində naxçıvanlı sahibkarlar görüşlər keçirəcək, ixraca dair müzakirələr aparacaqlar.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

Dövlət proqramı icra olunur

# Arxiv işinin inkişafı diqqətdə saxlanılır

***Arxiv işi müxtəlif istiqamətlər üzrə sənədlərin komplektləşdirilməsini, uçotunu, mühafizəsini və yenidən istifadəsini təmin edən mühüm əhəmiyyətli sahələrdən biridir. Ümummilli liderimiz Heydər Əliyev arxiv işinə həmişə böyük dəyər vermiş və demişdir: “Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də, ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir”.***





Arxiv işi ilə bağlı ölkəmizdə son illər mühüm dövlət tədbirləri həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafına xüsusi diqqət yetirilir, xalqın maddi-mənəvi həyatını özündə əks etdirən, tarixi, elmi, sosial, iqtisadi, siyasi, bədii və başqa mədəni əhəmiyyət kəsb edən sənədlər məcmuəsinin mühafizəsi təmin olunur. Muxtar respublikada həyata keçirilən abadlıq-quruculuq tədbirlərinin yönəldiyi əsas istiqamətlərdən biri də arxiv sahəsində müasir infrastrukturun qurulmasıdır. Rayon dövlət arxivləri üçün iş otaqları və fondların, kənd mərkəzlərində arxiv otaqlarının istifadəyə verilməsi qeyd olunanların əyani sübutudur. Bütün bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 mart tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi arxiv işi sahəsində həyata keçirilən islahatların davamlılığı, dövlət arxiv təşkilatlarının fəaliyyətinin təkmilləşdirilməsi, cəmiyyətdə arxiv işinin rolunun artırılması, arxiv fonduna aid sənədlərin toplanılması, sistemləşdirilməsi, dövlət mühafizəsinə daimi qəbulu, qeydiyyatı və onlardan səmərəli istifadənin təmin edilməsi üçün yeni imkanlar yaratmışdır.

Proqramda nəzərdə tutulan mühüm əhəmiyyətli tədbirlərdən biri dövlət arxivlərində fəaliyyətin müasir prinsiplər əsasında qurulması, arxiv sahəsində çalışan əməkdaşlar üçün seminar və tematik təlimlərin keçirilməsindən ibarətdir. Bu istiqamətdə işlər 2020-ci ildə diqqətdə saxlanılmış, rayon dövlət arxivlərində çalışan əməkdaşların elmi-metodik cəhətdən təlimatlandırılması məqsədilə 7 tematik təlim keçirilmişdir. Eyni zamanda dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda işləyən arxiv əməkdaşlarının məlumatlandırılması və maarifləndirilməsi üçün həmin təşkilatlarda çalışan 17 arxiv işçisinin iştirakı ilə seminar təşkil olunmuşdur. Seminarda idarə, müəssisə və təşkilatlarda arxiv işinin düzgün aparılmasının təşkil edilməsi üçün hazırlanmış “Tövsiyələr paketi” broşürü iştirakçılara paylanmışdır. Həyata keçirilən tədbirlər arxiv işçilərinin müasir metodlarla işləməsinə, fond sənədlərinin yenidən siyahılaşdırılması və elektronlaşdırılması işlərinin peşəkarlıqla aparılmasına xidmət etmişdir.

Arxiv sənədləri ilə işin xüsusi peşəkarlıqla qurulması xalqımızın mədəni irsinin uzun illərboyu qorunaraq saxlanılmasının təminatıdır. Bu sahədə ixtisaslı kadrların hazırlanması arxiv işinin inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən məsələlərdən biridir. Dövlət proqramında nəzərdə tutulan tapşırığın icrası məqsədilə 2020-ci ildə Naxçıvan Dövlət Universitetində müvafiq ixtisas üzrə fəaliyyət göstərən müəllimlərin, təhsil alan tələbələrin, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin bu sahədə tədqiqat aparan əməkdaşlarının iştirakı ilə seminar təşkil olunmuşdur. Bu dövrdə Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsilini başa vuran 1 nəfər Dövlət Arxiv İdarəsində işlə təmin edilmişdir.

Arxiv fondu sənədləri daimi mühafizə məqsədilə dövlət arxivlərinə təhvil verilənədək dövlət və bələdiyyə orqanlarında, idarə, təşkilat və müəssisələrdə yaradılan idarə arxivlərində mühafizə olunur. İdarə arxivləri müvafiq təşkilatın fəaliyyəti nəticəsində yaranan arxiv sənədlərinin mühafizəsini, komplektləşdirilməsini, uçotunu və istifadəsini həyata keçirir. Dövlət proqramında müəyyən edilmiş tapşırıqların icrasına uyğun olaraq 2020-ci ildə arxiv fondu sənədlərinin idarə arxivlərində qanunvericiliklə müəyyən edilən müddətdə mühafizəsinin təşkili, daimi dövlət mühafizəsinə təhvil verilmək üçün seçilən sənədlərin işlənməsi sahəsində görülən işlərə nəzarət məqsədilə 50-dən çox təşkilatda kompleks yoxlama, 46 təşkilatda pasportlaşma işləri icra olunmuşdur. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, eləcə də digər idarə, müəssisə və təşkilatlarda arxiv işinin düzgün qurulmasını, müvəqqəti mühafizə müddəti bitdikdən sonra arxiv fondu sənədlərinin komplektləşdirilərək Dövlət Arxiv İdarəsinə təhvil verilməsini təmin etmək məqsədilə mütəmadi olaraq komplektləşdirmə mənbəyi olan idarə arxivlərinə metodik köməklik göstərilmiş, təlimatlandırma işi həyata keçirilmişdir. Bu sahədə görülən işlər nəticəsində müvəqqəti mühafizə müddəti başa çatmış və dövlət arxivlərinə qəbul edilən sənədlərin həcmi artmışdır. Belə ki, 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi və rayon dövlət arxivlərinə, ümumilikdə, 12 min 27 saxlama vahidi qəbul edilmişdir.

Arxiv işi sahəsində müasir dövrün tələblərindən biri elektronlaşdırma işinin aparılmasıdır. Proqramın icrası məqsədilə 2020-ci ildə Dövlət Arxiv İdarəsində mövcud olan 761 fond üzrə 442 min 464 saxlama vahidinin daxil olduğu 2 min 395 siyahının elektronlaşdırılması və elektron kataloqunun hazırlanması bu sahədə görülən işlərin səmərəliliyinin artmasına imkan yaratmışdır.

Görülən işlər onu deməyə əsas verir ki, “Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı”nın icrası yeni perspektivlərə yol açmaqdadır. Bu işlərin davam etdirilməsi muxtar respublikamızda arxiv işinin daha da təkmilləşdirilməsinə təkan verəcəkdir.

**“Şərq qapısı”**

# “Robotunu yarat” müsabiqəsi keçirilib

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə məktəblilər arasında Robotexnika üzrə “Robotunu yarat” müsabiqəsi keçirilib.***

Müsabiqə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilib. Müsabiqənin keçirilməsində məqsəd şagirdlərin texnologiya sahəsinə marağını artırmaq, bu sahədəki məlumatlılığını zənginləşdirmək, əldə etdiyi bilik və bacarıqlarla robot modellərinin dizaynı, qurulması, proqramlaşdırılması, idarə edilməsi metodlarını öyrətməkdən ibarət olub.

Tədbiri giriş sözü ilə nazirlik Aparatının sektor müdiri Murad Babayev açaraq muxtar respublikada təhsilin inkişafı istiqamətində atılan addımlardan, bu sahəyə göstərilən diqqət və qayğıdan danışıb. Sonra müsabiqəyə start verilib.

Müsabiqədə şəhər və rayon məktəblərinin VI-IX sinif şagirdləri iştirak edib. “Robotunu yarat” müsabiqəsinin şərtlərinə əsasən şagirdlər komanda şəklində yarışıblar. Hər komandada 5 şagird olmaqla, 8 komanda yarışda iştirak edib. Müsabiqədə müxtəlif funksiya və ölçüdə olan robotların hazırlanmasına 6 saat vaxt verilib. Yarışda hazır robotlardan və yaxud legolardan istifadəyə icazə verilməyib. Robotun adı, iş funksiyası, dizaynı, proqramlaşdırılması iştirakçının sərbəst ideyası üzərində qurulub və robotun hazırlanmasında ideya olaraq innovasiya, dizayn, hərəkət, sadəlik, funksiya, təqdimat meyarları nəzərə alınıb.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan mətbuatının ən yaşlı nümayəndəsi, onlarla jurnalisti “şinelindən” keçirib respublika mətbuatına yaradıcı qələm sahibi kimi verən az qala iyirmi ildir ki, “Şərq qapısı” kimi nüfuzlu mətbuat orqanında jurnalistlik fəaliyyəti ilə məşğul olan, qəzetin məsul katibi Muxtar Məmmədovun “Şam ömrünün nağılı”, “Mənim Naxçıvan dünyam” adlı kitablarından sonra yeni – “Azadlığı istəmədik zərrə-zərrə...” kitabını çapa hazırladığı barədə məlumatım var idi. Burada yer alacaq yazıların böyük əksəriyyətinin ilk oxucularından biri kimi maraqlı yeni nəşrin ərsəyə gələcəyini düşünəndə də səhv etməmişdim. Budur, həmin kitabla üz-üzəyəm. Öncə onu qeyd etməyi vacib bilirəm ki, 44 günlük azadlıq mübarizəmizə həsr olunan ilk kitab kimi müəllif bu addımı ilə ziyalı və vətəndaş mövqeyini ortaya qoyub.***

Yeni nəşrlər

# Vətəndaş və jurnalist qayəsi ilə ərsəyə gəlmiş “Azadlığı istəmədik zərrə-zərrə...”




“Zəfər və şərəf tariximizə gələn yol və ya dünən yaşananlar”, “Buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl güzgüyə baxın”, “Vətən sizin qanınız çilənən torpaqdır” və “Tarixi yazanlar tarixdə yaşayacaq” bölmələrindən ibarət olan kitabın hər səhifəsi vətənpərvərlik hissinə bürünüb, bu səhifələr yumruq boyda ürəyə sığan dünya boyda Vətən, yurd, el-oba sevgisindən danışır. Süjet xəttini əvvəldən sonadək vətənpərvərlik mövzusu təşkil edən kitabda müəllif ermənilərin azərbaycanlılara qarşı qan yaddaşımıza hopan soyqırımları, torpaq iddialarından bəhs edən məqalələrini xronoloji ardıcıllıqla sıralayıb. Kitabda ötən əsrin əvvəllərindən başlayaraq xalqımıza qarşı ən böyük tarixi ədalətsizlik olan soyqırımlardan, deportasiyalardan, bunların nəticəsində boşaldılmış Qərbi Azərbaycan torpaqlarında ermənilərin üzdəniraq hərəkətlərindən 20 Yanvar, Xocalı faciələrinədək faktlara əsaslanan məqalələr bir-birini əvəz edir. Bütün bu hadisələrin Naxçıvan Muxtar Respublikasına təsirləri, Sədərək hadisələri, Kərkinin işğalı özünəməxsus qələm sahibinin vətəndaş və jurnalist qayəsi ilə oxuculara çatdırılır. Müəllif Günnüt qələbəsi, 44 günlük Vətən müharibəsi, torpaqlarımızın işğaldan azad olunması, dövlət başçımızın xalqa müraciətləri, informasiya savaşındakı müsahibələri əsasında böyük vətənpərvərliklə qələmə alınan yazıları ilə ayrı-ayrı dövrlərdə törədilən soyqırımların, faciələrin cavabını verir, ötən əsrlərin hadisələrini tarixiləşdirməklə yanaşı, onların fonunda özünün qeyd etdiyi kimi, “zəfər və şərəf tariximizə gələn yol və ya dünən yaşananlar”ı yaradır.

Kitabdakı bütün yazılarda bir amil diqqəti, xüsusilə cəlb edir: müəllif baş vermiş hadisələri təhlil süzgəcindən keçirir, ən incə detallara qədər oxucuya təqdimatında isə paralel olaraq xalqın sabaha böyük inam hisslərini ortaya qoyur – əyilməzliyimizi, məğlubedilməyimizi, haqsızlığa, ədalətsizliyə qarşı barışmazlığımızı həyati faktlarla oxucuya çatdırır. Bunun ifadəsidir ki, kitabda özünə yer alan yazıların hansı birinə nəzər salsaq, oxucunun yazıdan müsbət enerji ilə ayrılmasını görərik. Və elə “Azadlığı istəmədik zərrə-zərrə...” məhz bu xətt üzrə qurulub, həm tərtibat, həm də qələmə alınan mövzuların işlənməsi baxımından. “Müdhiş gecə haqqında düşüncələr” adlı yazıda oxuyuruq: “O gün bir saatın, bir günün içində gəlməmişdi. Çox uzaqlardan başlamışdı o günün bizə qədər gəlib çıxan yolu. Babəkdən, Şah İsmayıldan keçir o yol. Uzaq Sibir çöllərində “Vətən xaini” kimi ömür sürən insanların içini deşən azadlıq, müstəqillik, həmrəylik arzularının yoludur bu yol.

...Bakı qan dənizində çalxalanmağa sürüklənirdi.

...Bu da taleyin bir qisməti idi ki, o azadlıq mücahidlərini Şəhidlər xiyabanında son mənzilə yola salan gün Bakının, Naxçıvanın doğum evlərində dünyaya gələn körpələrin hamısı oğlan uşaqları idi”.

Bu gün düşünürəm ki, 30 ildir, düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad edən, qazi kimi evinə qayıdan, şəhidlik zirvəsinə ucalan məhz o uşaqlar idi.

Kitabda zəfər və şərəf tariximizin qəhrəmanları müəllifin təxəyyülü, düşüncəsi və bir də özünəməxsus yaradıcılığı ilə sanballı mətbu nümunələrə çevrilib. Çingiz Vəliyevin, Raqib Hüseynovun, Natiq Xəlillinin, Saday Məmmədəliyevin, İbrahim Məmmədovun, Bağır Ələkbərovun Vətənə, torpağa məhəbbətdən yoğurulmuş ömür yolu hər bir gəncə nümunə gücündə təqdim olunur. Müəllif vətənpərvərliyin hər bir naxçıvanlının qanında və canında olduğunu bildirir, vətənpərvərliyin sonradan qazanılmadığını, qanla gəldiyini vurğulayır, Naxçıvanı vətənpərvərlik sözünün sinonimi adlandırır.

Mən həmişə düşünürəm ki, jurnalist üçün onun yazıları övladlarıdır. Və burada bir ev anlayışı var. Övladlarımız evlərimizdə tərbiyə alır, böyüyürlərsə, buradan cəmiyyətə qədəm qoyurlarsa, yazılarımızın da “evi” kitablardır. Yazılarımız da öz “evlərində”– kitablarda mühafizə olunur, gələcək nəsillərə çatdırılır. Bu nöqteyi-nəzərdən “yazılarınızı itirməyin, saxlayın, bir yerə toplayın, həmişə gərəyiniz olar”, – deyən müəllif də çox haqlıdır. Yazılarını “evli”– kitablı edən müəllifi vətənpərvərlik məcmusu olan yeni kitabı münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Mətanət MƏMMƏDOVA**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

# Polis məktəbində kursantlar üçün mühazirə



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi aidiyyəti orqanlarla əməkdaşlıq fəaliyyətini davam etdirir. Bu məqsədlə mərkəzin ekspertləri tərəfindən Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin kursantları üçün “İnsan izlərinin tədqiqi” mövzusunda mühazirə təşkil olunub.*

Mühazirədə kursantlara Məhkəmə Ekspertizası Mərkəzində aparılan ekspertizalar, onların növləri haqqında, hadisə yerinin mühafizəsi, hadisə yerində maddi sübutların tamlığının pozulmaması, mərkəzdə keçirilən insan izlərinin tədqiqi ekspertizası və daktiloskopik ekspertizalar barədə məlumat verilib.

Mərkəzin Ballistik və trasoloji ekspertizalar bölməsinin rəisi əvəzi, kiçik ədliyyə müşaviri Səməd Şahtaxtinski mərkəzin yaranma tarixi və zərurəti, hadisə yerinin mühafizəsi haqqında danışıb. Qeyd olunub ki, polis əməkdaşının vəzifələrindən biri də hadisə yerinin mühafizəsidir. Polis əməkdaşı hadisə yerində diqqətli olmalı, kənar müdaxiləyə yol verməməli, səlahiyyəti xaricində mövcud predmetlərə müdaxilə etməməlidir.

Ballistik və trasoloji ekspertizalar bölməsinin eksperti, I dərəcəli ədliyyə qulluqçusu Cavid Əliyev kursantlara “İnsan izlərinin tədqiqi ekspert ixtisası üzrə” mühazirəsində insan izlərinin aşkar olunması, götürülməsi, qeydə alınması, qablaşdırılması və ekspertiza tədqiqatına göndərilməsi ilə bağlı məlumat verib.

Mühazirədə mövzu ilə bağlı videoçarx nümayiş etdirilib, suallara aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Axtarışlar, tapıntılar*

# Naxçıvanda yeni Neolit abidəsi

***Cənubi Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ilə Daş dövrünün müxtəlif mərhələləri Paleolit dövründən başlayaraq Neolit dövrünədək öyrənilmişdir. Lakin Mezolit dövrü və Mezolitdən Neolitə keçid mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Bu baxımdan Cənubi Qafqazda keramikasız Neolit dövrünün öyrənilməsindəki boşluğu dolduran Osmantəpə yaşayış yerinin yeni tapıntıları müəyyən əhəmiyyətə malikdir.***



Bu yaşayış yeri Şahbuz rayonunun Kükü kəndi yaxınlığında, dəniz səviyyəsindən 2400 metr yüksəklikdə mövcud olub. Həmin ərazi hazırda süni gölün sahilində yerləşir və onun bir qismi su altında qalmışdır. Bu sahədə çoxlu gursulu bulaqlar olduğundan yaşayış yerinin ətrafı indi də maldar əhali tərəfindən istifadə olunur. Bu bulaqların suyunu toplamaq üçün qəza rəisi Şəngirey 1865-ci ildə burada bənd tikdirmiş və Qanlıgöl Su Anbarını yaratmışdır. Bənd tikilərkən yaşayış yerinin bir qismi dağılmış və qismən su altında qalmışdır. 2019-2020-ci illərdə apardığımız araşdırmalar zamanı yaşayış yerində 300-dən artıq obsidian əmək aləti aşkar olunmuşdur. Onlar arasında 8 nukleus və 159 mikrolit vardır. Mikrolitlərin ölçüsü 1-2 santimetr arasındadır. Yaşayış yerinin üst təbəqəsindən götürülən karbon nümunəsinin analizi eramızdan əvvəl VI minilliyi göstərmişdir. Bu yaşayış yeri I Kültəpədən sonra Naxçıvanda ikinci qədim Neolit məskənidir.

Araşdırmalara əsasən demək olar ki, Osmantəpə sakinləri yarımqazmatipli evlərdə yaşamışlar. Bu tip evlər indi də maldar tayfalar tərəfindən istifadə olunur. Qeyd etdiyimiz kimi, arxeoloji materialların əksəriyyəti obsidian məmulatından ibarətdir. Birinci qrupa daxil olan alətlər başlıca olaraq qaşovlarla təmsil olunmuşdur. Lakin ikinci qrupda alətlərin çeşidi artmış və müxtəlif alətlər, o cümlədən oraq dişləri meydana çıxmışdır. Tədqiqat göstərir ki, bəzi alətlər çoxfunksiyalı olmuşdur. Əmək alətlərinin bənzərləri Mezolit və Erkən Neolit dövrü abidələrindən məlumdur. Qeyd etmək lazımdır ki, qısasaplaqlı ərsinlərin bənzərləri Cənubi Qafqazın Son Neolit dövrü abidələrindən məlum deyil. Bu isə yaşayış yerinin qədim tarixə malik olduğunu göstərir. Əmək alətlərinin tipoloji analizinə əsasən demək mümkündür ki, Osmantəpənin qədim sakinləri başlıca olaraq maldarlıq və yığıcılıqla məşğul olmuşlar. Lakin oraq dişləri və keramika məmulatı istehsal təsərrüfatının mövcud olduğunu təsdiq edir. Osmantəpə yaşayış yerinin tədqiqi Naxçıvanın qədim sakinlərinin hansı yollarla obsidian yataqlarına doğru getdiyini də dəqiqləşdirməyə imkan verir.

Obsidian alətlərin mikroskopik tədqiqi bu yaşayış yerinin obsidianın daşınmasında keçici yaşayış yeri kimi deyil, həmçinin insanların burada müəyyən müddət fəaliyyəti üçün istifadə olunduğunu göstərir. Yaşayış yerində mədəni təbəqənin yığılması da bunu təsdiq edir. Yaşayış yerinin yüksək dağlıq ərazidə yerləşdiyini və burada iqlimin soyuq olduğunu nəzərə alsaq, deyə bilərik ki, Osmantəpə yaşayış yeri mövsümi yaşayış yeri kimi istifadə olunmuşdur. Keramika məmulatının çox az miqdarda və kiçik parçalar halında aşkar olunması, bizcə, keramikalı Neolit dövrünün və istehsal təsərrüfatının yenicə başladığını göstərir. Əmək alətlərinin tədqiqi də bunu sübut edir. Demək olar ki, Osmantəpə yaşayış yerinin materialları Mezolitdən Neolitə keçid dövrünü əks etdirir. Araşdırmalar obsidian alətlərin hazırlanmasında başlıca olaraq Göyçə və Zəngəzur obsidianından istifadə olunduğunu göstərir ki, bu da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda keramikalı Neolitin yerli zəmində inkişaf etdiyini təsdiq edir.



**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

# Gənc memarın uğurları

***Bu gün muxtar respublikamızda ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində diyarımızın ali təhsil müəssisələri, nəinki regionun, dünyanın qabaqcıl universitetləri səviyyəsində hərtərəfli infrastruktura malikdir.***

Yaradılan belə şəraitdən səmərəli istifadə edən bir çox gənc öz uğurları ilə seçilir. Həmin gənclərdən biri də Naxçıvan Dövlət Universitetinin Memarlıq ixtisasının müəllimi, gənc memar, texnopark layihəsinin müəlliflərindən biri İsmayıl İsmayıllıdır. 1991-ci ilin aprel ayında Ordubad rayonunun Nüsnüs kəndində anadan olan İsmayıl ilk təhsilini də elə kənddə alıb. 2012-ci ildə Naxçıvan Dövlət Universitetinin memarlıq və mühəndislik fakültəsinin memarlıq ixtisasında təhsilini davam etdirib. 2017-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra elə bu təhsil ocağında pedaqoji fəaliyyətə başlayıb.



Müsahibimizlə söhbət zamanı bildirdi ki, orta məktəbdə oxuduğum illərdə rəsm dərsinə həddən artıq marağım var idi. O dövrdə çəkdiyim şəkillər müsabiqədə fərqlənirdi. Məktəbdə yaradılmış rəssamlıq dərnəyinin üzvü idim. Rəssamlığa marağım məni universitetə gətirib çıxardı. İlk uğura isə birinci kursda oxuduğum müddətdə nail oldum. Hazırladığım daşduzdan ibarət dəvə karvanı vaxtilə duzun buradan Böyük İpək yoluna daşınmasını simvolizə edirdi.

İsmayıl bir neçə bina maketinin də müəllifidir. İlk maketi Azərbaycan Bayrağının fonunda ictimai bina olub. Həmin maket sərgidə yaxşı qiymətləndirilib.

Onu da qeyd edək ki, İsmayıl universiteti bir çox müsabiqələrdə uğurla təmsil edib.

İkinci kursda oxuyarkən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda "Muxtariyyət və intibah" adlı yaradıcılıq müsabiqəsində eyniadlı bir rəsm əsəri təqdim edib və həmin əsərə görə də diplomla təltif olunub. Hər qazandığı uğur onu yeni naliyyətlərə sövq edib. Növbəti müsabiqədə qazandığı uğur isə Naxçıvanda ilk dəfə təşkil edilən "Ənənəvi tendensiyalar" adlı memarlıq müsabiqəsi olub. Landşaft mövzusunda hazırladığı layihə yeni ideya baxımından bəyənilib və mükafata layiq görülüb.

*– Həm rəssamlıq, həm də memarlıqla məşğul olmaq sizin üçün çətin deyilmi? Bəziləri bu ixtisasları eyniləşdirməyə çalışsa da, bir çox fərqli məqamları və özünəməxsus incəlikləri var. Oxucularımız üçün maraqlı olar ki, İsmayıl İsmayıllı iki çətin, bir o qədər də istedad tələb edən peşənin öhdəsindən necə gəlir?*

– Dəyərli həmkarım Elturan Avalovun bununla bağlı maraqlı qənaəti var: "Rəssamlığı yaxşı bilməyən memarın sənəti heç zaman qiymətli ola bilməz". Bunun başlıca səbəbi ondan ibarətdir ki, müxtəlif sahələrdə olduğu kimi hər bir sənətkar düşündüyü ideyanı öncə kağıza köçürməyi bacarmalıdır. Memarlıqda bu üsula eskiz deyilir və bir memarın çəkdiyi eskiz nə qədər maraqlı, ideyalarla dolğun olarsa, layihə də bir o qədər uğurlu alınacaq.

*– Sizin ən böyük naliyyətiniz gələcəkdə yaradılacaq Texnologiya Parkının layihəsidir və buna görə, ölkə başçımızın 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə Prezident mükafatına layiq görülmüsünüz. Bu layihə və onun əhəmiyyəti haqqında oxucularımıza məlumat verməyinizi istəyirik.*

– Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2020-ci il 14 dekabr tarixdə "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" sərəncam imzalandıqdan sonra biz Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovla birlikdə layihənin eskizlərini hazırlamağa başladıq. Ənənəvi eskizlər tam hazır olduqdan sonra layihənin vizual həllini tamamladıq. Yaradılacaq Texnologiya Parkında tələbələrin özlərini inkişaf etdirmələri üçün geniş şərait olacaq. 2 hektar ərazidə yerləşəcək zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət texnopark binasında tələbələr öz bilik və bacarıqlarını tətbiq edə və müəyyən layihələr üzərində işləyə biləcəklər. Bununla yanaşı, burada xüsusi kabinələr nəzərdə tutulub ki, bununla da tələbələr bir sıra xarici universitetlərlə əlaqə qura biləcək, auditoriyada öyrəndikləri nəzəri bilikləri burada praktik cəhətdən tədbiq etmək imkanı qazanacaqlar.

Ərazidə tikiləcək Biopark binasında arıçılıq üçün sahə ayrılıb. Burada xüsusi dərman preparatlarının hazırlanması ilə birgə həm də arıçılıq məhsulları istehsal ediləcək. Bununla yanaşı, Coğrafiya ixtisasında təhsil alan tələbələr relyef, qeyzer, vulkan maketləri, bağçılıq-bostançılıq sahəsində tinglər və subtropik bitkilərin yetişdirilməsinə, meliorasiya sahəsində isə süni suvarmanın müxtəlif yollarının öyrənilməsinə praktik cəhətdən nail ola biləcəklər.

Söhbətimizin sonunda İsmayıl İsmayıllı bildirdi ki, hazırladığı layihənin Prezident mükafatına layiq görülməsi onu çox sevindirib. Buna görə də gənc memar Naxçıvanda təhsilin inkişafına böyük diqqət göstərən muxtar respublika rəhbərinə öz minnətdarlığını bildirdi. Gənc memar ona dəstək olan bütün həmkarlarına təşəkkürlərini çatdırdı. Bundan sonra da yeni uğurlara imza atacağını, ölkəmizin adını uca tutmağa çalışacağını, gənclərə göstərilən etimadı doğruldacağını vurğuladı.

**✍ Məcid ƏKBƏROV**

# Atletlər arasında şəhər birinciliyi

***Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında Naxçıvan şəhər tam orta məktəblərində yaradılan idman klublarının atletləri arasında atletikanın qaçış növü üzrə şəhər birinciliyi keçirilib.***



Yarışda 3 komanda (hər komandanın tərkibi 3 oğlan, 3 qız) üzrə 18 idmançı iştirak edib. Oğlanlar arasında 100 metr məsafədə 10 nömrəli tam orta məktəbin şagirdi Məhəmməd Rzayev, 200 metr məsafədə 8 nömrəli tam orta məktəbin şagirdi Efe Yaqubov, 400 metr məsafədə 8 nömrəli tam orta məktəbin şagirdi Vaqif Orucov qalib adını qazanıblar.

Qızların mübarizəsində isə 14 nömrəli tam orta məktəbin şagirdi Aminə Novruzzadə (100 metr), 10 nömrəli tam orta məktəbin şagirdləri İlahə Hacılı (200 metr) və Sənubər Ələsgərli (400 metr) finiş xəttinə hamıdan öndə çatıblar.

Komanda hesabında isə 10 nömrəli tam orta məktəbin komandası rəqiblərindən üstün olub. Digər iki pillədə isə 8 və 14 nömrəli tam orta məktəbin komandaları qərarlaşıblar.

Sonda qaliblər mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

# Çempion tələbələr mükafatlandırılıb



Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində təhsil alan Avropa çempionları ilə fakültə tələbələrinin görüşü olub.

Universitetin rektoru, dosent Elbrus İsayev tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda idmanın kütləviliyinin artırılması istiqamətində görülən tədbirlər çərçivəsində ali təhsil ocağının idman bazası təmir edilərək yenidən qurulub, minifutbol meydançasının süni örtüyü yenisi ilə əvəzlənib. Rektor qeyd edib ki, hər il ali təhsil ocağında 70-80 nəfər ixtisaslı kadr hazırlanır, müxtəlif növlər üzrə hakimlərin hazırlanması, seminarların təşkili də diqqət mərkəzindədir.

Bədən tərbiyəsi və idman kafedrasının müdiri, Əməkdar bədən tərbiyəsi və idman xadimi Əvəz Tağıyev çıxışında bildirib ki, hər il I kurs tələbələri arasında onların fiziki hazırlığını yoxlamaq və müxtəlif idman məşğələlərinə cəlb etmək məqsədilə seçmə yarışları keçirilir. Universitetdə 15 idman növü üzrə məşğələlər fəaliyyət göstərir.

Universitet idman klubunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Məmmədəli Rəhimov vurğulayıb ki, son illərdə universitetin tələbələrindən Tayfur Əliyev I Avropa oyunlarında mükafata layiq III yeri tutub, şahmatçımız Toğrul Həsənzadə və Pərviz Qasımov müxtəlif beynəlxalq turnirlərin qalibi olaraq usta normasını, Sadiq Məmmədov isə fide usta normasını ödəyiblər. Karateçilərdən Sərcan Məmmədov və Aslan İsmayılov isə Avropa birinciliklərində müvəffəqiyyətlə çıxış ediblər. Sərcan Məmmədov İran İslam Respublikasında keçirilən karate-do üzrə beynəlxalq turnirin, Bakı şəhərində keçirilən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş beynəlxalq turnirin qalibi olub. Sərbəst güləşçilərdən Ramid Yaqubov və Azər Əliyev Azərbaycan Respublikası çempionu olublar. Badmintonçu qızlarımız ümumi komanda hesabında dörd dəfə Azərbaycan ali məktəblərinin "Universiadası"nın qalibi olub, iki dəfə isə mükafata layiq üçüncü yeri tutublar. Universitetin tələbəsi Parisa Rüstami isə İran İslam Respublikasında keçirilən badminton üzrə beynəlxalq turnirin qalibi olub.

Uzunoba gölü sahilində keçirilən çimərlik futbolu üzrə Naxçıvan Muxtar Respublika birinciliyi yarışlarında universitet komandası bütün rəqiblərinə qalib gələrək I yerə layiq görülüb. Sahil Parkında keçirilən stolüstü tenis yarışlarında mükafata layiq bütün yerləri ali təhsil ocağının tələbələri tutublar.

Çempion tələbələr idmanın inkişafına göstərilən dövlət dəstəyinə görə minnətdarlıqlarını ifadə ediblər.

Sonda tələbələrə diplom və hədiyyələr təqdim edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

***İtmişdir***

Novruzova Fatma İlqar qızının adına "Naxçıvan" Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 170